UOT: 94(479.24)

**Səbinə Quliyeva,**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş. İstiqlaliyyət küç., 26*
*email: sabina.quliyeva94@bk.ru*

# FƏRHAD MİRZƏ QACARIN "SƏFƏRNAMƏ" ƏSƏRİNİN TƏHLİLİ

**Xülasə.** *Məqalədə Qacarlar sülaləsinin ziyalı şahzadəsi Fərhad Mirzə Qacarın 1875-1876-cı illərdə Məkkəyə səfərindən bəhs edilir. Fərhad Mirzə Qacar bir çox Azərbaycan ərazisindən keçərkən gördüyü və eşitdiyi hadisələri qələmə almışdır. Rusiyadan başlayaraq, Osmanlı İmperiyasından və Misirdən keçən Məkkəyə səyahət adi bir səyyahın səyahəti deyil, imtiyazlı bir şəxsi qarşılama mərasimi idi. Məqalədə Fərhad Mirzə Qacarın görkəmli nümayəndələrlə siyasi görüşləri ilə tanış oluruq. Bu məlumatları təhlil edərək onun hər yerdə çox hörmətli bir şəxsiyyət olduğunu müəyyən edirik.*

**Açar sözlər:** *Qacarlar sülaləsi, Fərhad Mirzə Qacar, Məkkə səfəri, Səfərnamə*

**Giriş.** Qacarlar Azərbaycan və indiki İran ərazisində XVIII-XX əsrlərdə hakimiyyətdə olmuşlar. Abbasqulu Ağa Bakıxanov yazır ki, qacarlar Azərbaycan tayfalarından olub, Gəncə ətrafında, Şamxor çayının sol sahilində yaşayırdılar. Qacarlar nəcib türk tayfalarındandır [3, s.78].

Qacarlar tayfası qədimdən Qərbi Azərbaycanda məskunlaşmışlar. I Şah Abbas onları oradan köçürərək Astrabadda xeyli qacar yerləşdirmişdir [2, s.207].

İran alimi Səid Nəfisi qacarların Qafqazdan, Azərbaycandan İrana köçürülməsinə iki mühüm səbəb göstərmişdir:

1. Şah Abbasın 1607-1608-ci illərdə Osmanlı Dövləti ilə bir sıra müharibələr apardıqdan sonra Türkiyə sərhədlərində yaşayan əhalinin əksərini İranın başqa vilayətlərinə köçürməsi və osmanlılarla yaxınlıq və saziş etmək ehtimalına qarşı qacarları Azərbaycandan uzaqlaşdırması;
2. Səfəvi hakimiyyətinin əvvəllərində Şərqlə Qərb arasında Qafqaz və Azərbaycan əlverişli ticarət yolu hesab edilirdi. Bu zaman I Şah Abbas qacarları Gurgan və Xorasana köçürdü [3, s.79].

Qacarlar Səfəvilər dövründə Qarabağda və Araz kənarlarında yaşayırdılar. "Onlar Azərbaycanın əsasən şimal hissəsində, Qarabağ, Gəncə və İrəvanda sakin idilər. Azərbaycan tarixçilərinin son dövr tədqiqatları sübut etmişdir ki, Qacarların Azərbaycan ərazisində yerləşməsi barədə ilkin məlumat V əsrin ortalarına aiddir (əsasən, Xalxalda)", [3, s.80].

XIX əsrin I yarısında Qacarlar dövlətinin istəmədən cəlb olunduğu I və II Rusiya-İran müharibələri baş vermişdir. Ordu əsasən, azərbaycanlılardan ibarət idi və Abbas Mirzənin Azərbaycan əhalisi arasında qazandığı nüfuz nəticəsində onun ordusuna gələnlərin on minlərlə olduğunu göstərən İran və Avropa mənbələri mövcud olmuşdur [1, s.11].

Azərbaycan ordusu 1804-1813 və 1826-1828-ci illərdə baş vermiş müharibələrdə şahzadə Abbas Mirzənin apardığı islahatlar nəticəsində bir çox uğurlar qazanmışdır. Abbas Mirzə Azərbaycan hərb tarixində şərəfli yeri olan Qacar şahzadələrinin ən ləyaqətlisi, öz zamanının və mühitinin mövcud vəziyyətindən bir neçə addım qabaqda getmiş nümayəndəsidir.

Abbas Mirzə Qacar 1789-cu il avqustun 28-də Mazandaranın Nəvai qəsəbəsində

anadan olmuşdur. O, öz ağlı, zəkası, xasiyyəti, cəsurluğu və bəlağətli nitqi ilə Fətəli şahın digər övladlarından fərqlənirdi. Onun və atası Fətəli şah haqqında çoxlu xalq əfsanələri yaranmışdır [3, s.178]. Abbas Mirzə həm də Ağa Məhəmməd şah Qacarın vəsiyyəti ilə təyin edilmiş vəliəhd idi. O, 1799-cu ildə vəliəhd və vali kimi Azərbaycana gəlmişdir. Abbas Mirzə Rusiya-İran müharibələri zamanı Azərbaycan ordusunun cəsur sərkərdəsi kimi ləyaqətlə vuruşmuş, ordunun yenidən qurulması üçün çox zəhmətlər çəkmişdir.

Abbas Mirzə 1833-cü ildə vəfat etmiş, imam Rza (ə) məqbərəsində dəfn olunmuşdur. 32 il Azərbaycanda yaşamış Abbas Mirzə bu diyara çox bağlanmışdı, onun vahid, bütöv olması üçün mübarizə aparır, işğalı ilə barışmırdı. O, itirilmiş Azərbaycan torpaqlarını qaytaracağı ümidi ilə yaşadığından bunun üçün daim ordunun təkmilləş-dirilməsi ilə məşğul idi. Abbas Mirzə Azərbaycana sevgisini bildirərək məktublarının birində yazırdı: "Azərbaycan məmləkəti mənim evim, əhalisi isə öz övladımdır. Ömür vəfa edərsə öz evim Azərbaycana dönəcəyəm". Azərbaycana sonsuz sevgisi olan Abbas Mirzəni ömrünə iki il qalmış atası Fətəli şah Xorasana göndərərkən o atasına üz tutaraq onu Azərbaycandan ayırmamasını xahiş edir. Cahangir Mirzə "Tarixi-nou" əsərində yazmışdır ki, Azərbaycandan cəmi iki il ayrı yaşamış Abbas Mirzə son nəfəsində 2 dəfə Azərbaycan demişdir [1, s.196].

Hacı Fərhad Mirzə Qacar Azərbaycan hakimi Abbas Mirzə Naibüssəltənənin on beşinci oğlu, Fətəli şahın nəvəsi olub. O, öz dövrünün çox ziyalı və fazil şəxsiyyətlərindən olmuşdur. Fərhad Mirzə də atası Abbas Mirzə kimi Azərbaycansevər olub. Fərhad Mirzədə Azərbaycana olan bu maraq və diqqət atası Abbas Mirzənin böyük Azərbaycan sevgisindən qaynaqlanmışdı [4, s.12,16].

Fərhad Mirzə elmi yaradıcılıqla da məşğul idi və çap olunmuş bir sıra əsərlərin müəllifidir. O cümlədən «Münşəat», «Zənbil», «Cami-cəm», iki min sözdən ibarət «Kitabi-nisabi-ingilisi», nəhayət Şeyx Bəhainin «Xülasətül-hesab» əsərinə fars dilində yazılmış şərh onun təxəyyülünün məhsuludur.

İlk vaxtlar Təbrizdə yaşayan Fərhad Mirzə bir sıra əyalətlərin, o cümlədən Həmədanın hakimi olub. 1873-cü ildə Avropaya ilk səfəri zamanı Nəsrəddin şah əmisi Fərhad Mirzəni çağırıb bütün ölkəni, paytaxtı ona tapşırır. Şah qayıdarkən müəmmalı şəkildə Fərhad Mirzəni və sədr-əzəm Hüseyn xanı vəzifəsindən uzaqlaşdırır. Bu işdə şübhəsiz ki, xarici qüvvələrin də əli vardı. Fərhad Mirzə 2 il evdə xanənişin (ev dustağı) olur. İki ildən sonra şaha müraciət edir ki, ona Məkkə səfərinə getmək icazəsi versin. İcazə verilir. O, baş nazirin yanına gedir və deyir ki, "mən sizin vəzifənizdən uzaqlaşdırılmağınızda günahkar sayılıram və öz günahsızlığımı sübut etmək üçün Məkkə səfərinə gedirəm". Ondan şübhələnsələr də, əslində, belə deyildi. Sadəcə, o vaxtlar ingilislər həm sədr-əzəmi, həm də Fərhad Mirzəni sevmirdilər. O, ingilis Röyterlə bağlanan müqavilənin əleyhinə idi. Fərhad Mirzə o müqavilənin İranın mənafeyinə zidd olduğunu görüb və buna ilk növbədə etiraz edib. Onun düşmənləri də bundan istifadə ediblər. Ancaq çox çəkmir ki bu müqavilə ciddi müqavimət nəticəsində ləğv edilir (1873) və Məkkə səfəri baş tutur.

Röyterlə bağlanan müqavilənin əleyhinə olmaqla və müqavilənin ləğv edilməsinə çalışması ilə Fərhad Mirzə rusların və ingilislərin nəzərində Röytərə qarşı mübarizənin əsl qəhrəmanına çevrilir. Onun Məkkə səfərini Rusiyadan başlaması, Osmanlı, Misir, oradan Məkkəyə hərəkəti adi müsafirin səfəri deyildi, imtiyazlı, seçilən bir şəxsiyyətin qarşılanması təntənəli idi, ona hər yerdə hörmət, ehtiram göstərirdilər [4, s.3,13].

Səfər xronoloji baxımdan 1875-ci ilin sentyabrından başlayır. Fərhad Mirzə səfərin başlanması tarixini xüsusi olaraq şərh edərək yazır ki, "hicri 1292-ci il rəcəb ayının çəharşənbə günündə Qurandan istixarə etdim ki, şaban ayının 7-si çəharşənbə günü yola çıxım. Günorta namazından 3 saat 16 dəqiqə keçəndə evdən çıxdım". Bu tarix şəhrivər

ayının 22-nə, yəni 1875-ci ilin 8 sentyabrına təsadüf edir. Fərhad Mirzə 1875-ci il sentyabrın 8-də yola düşür və 1876-cı il martın 29-da qayıdır. Gəmiylə Bakıya, oradan faytonla Azərbaycan şəhərlərinə, dəmiryolla Tiflisə, ordan da gəmiylə Poti, İstanbul, Məkkə, Mədinə, Ciddə şəhərlərinə gedir [4, s.4].

Hər bir səyahətdə olduğu kimi burada da "Səfərnamə"nin yol xəritəsi ciddi maraq yaradır. Bununla belə, səfərin müəyyən siyasi məqsədlər daşıdığını da qəbul etmək lazımdır. Güman edilir ki, səfərin yol xəritəsi elə müəyyən edilmişdi ki, o, vaxt etibarı ilə uzun çəksin, nisbətən geniş olsun, keçdiyi yerlərin hakimlərinin iqamətgahını əhatə etsin ki, bu da siyasi görüşlərin keçirilməsi üçün əhəmiyyətli idi. Fərhad Mirzənin yol xəritəsini dəqiqliklə qeyd etməsi onun dövlət adamı kimi böyük təcrübəyə malik olduğunun göstəricisi də ola bilər. Bütün məntəqələri burada təkrar edilmədən ölkələr üzrə ifadə etsək, səfərin gedişinin təxminən bir ayı Şimali Azərbaycanda, 20 günədək olan müddəti Gürcüstanda, üç aydan çoxu Osmanlı ərazisində keçmişdir. Dövrün siyasi coğrafiyası əsas götürülsə, Fərhad Mirzə İranla birlikdə, Rusiya və Osmanlı dövlətlərinin ərazisindən keçmişdir. Bu baxımdan Rusiya (Şimali Azərbaycan, Gürcüstan) və Osmanlı imperiyalarının (Türkiyə, Misir və Hicaz (sonralar Səudiyyə Ərəbistanı) yol xəritəsinin əhatə etdiyi yerləri haqqında sosial-coğrafi və siyasi qeydlər İran üçün strateji əhəmiyyətə də malik idi.

Səfərin Şimali Azərbaycana aid hissəsi Fərhad Mirzə və heyətinin Bakıya gəmi ilə daxil olması ilə başlanır və 1875-ci il 16-19 oktyabrda davam edir. Bu müddət ərzində Bakı şəhəri ilə tanış olan Fərhad Mirzə Bakının həmin dövrü haqqında mühüm məlumatlar verir. Şahzadə şəhəri belə təsvir edir: "Sübh gəmi lövbər salandan sonra mən göyərtəyə çıxaraq Badkubəyə tamaşa etdim. Badkubə şəhəri bir dağın ətəyində yerləşir. Evlər də dağın ətəyindədir. Əhalisi 25 min nəfər olar. Bunlardan 5 min nəfəri rus və ermənidir və 20 min nəfəri isə şiə müsəlmandır. İndi hamı şəhərə Bakı deyir [4, s.5].

Badkubənin cənubunda şəhərdən bir fərsəx aralı Bibi-Heybət imamzadəsi vardır ki, deyirlər Həzrəti-İmam Rza Əleyhissalamın bacısınındır. Əhali bu yerə böyük etiqad bəsləyir və bura onların ziyarətgahıdır [4, s.38].

Bakıda Fərhad Mirzəni cənab qubernator Staroselski hörmətlə qarşılayır və üzrhaxlıq edərək onun gəlişindən gecə xəbər tutduğunu bildirir. O, adamlarını təqdim etdi və gedərkən xahiş etdi ki, bir saat gəmidə dayanaq və gözləyək. Hakim getdikdən sonra xəbər göndərərək bildirir ki, şahzadə üçün mehmanxanada deyil, müsəlman evində qalmağı təklif edir. Bir qədər gözlədikdən sonra şahzadə qubernatorla birlikdə yola çıxıb mənzilə gəlirlər. Bu mənzil Kazım bəyin bacısı oğlu, Hacı Həsən bəyin oğlu Cəfərqulu bəyin evi idi. Onlar təzim edib şahzadəni salamlayıblar. Musiqi səslənir və ardından qubernatorun özü onunla mənzilə qalxır və bir qədər oturandan sonra gedir [4, s.39].

Düşənbə günü şahzadə Atəşgaha gedib tamaşa etmək qərarına gəlir. Fərhad Mirzə və onu müşayiət edənlər əvvəlcə Balaxanı kəndinə yola düşürlər. Burada onlar neft mədənlərinə tamaşa edirlər. Şahzadə qeyd edir ki, hər gün şəhərə 8 min pud neft daşınan bu torpaqda hər yer neftlə örtülüb. Neft iri çarxlı arabalara yüklənir, ata bağlanaraq, Balaxanı kəndindən şəhərə gətirilir. Şəhərin yaxınlığında başqa zavodlar da tikilmişdir, burada neftdən ağ neft alınır və məişətdə yandırıb işıqlandırmaq üçün istifadə olunur. Bu növ neft gəmilərlə Rusiya və İranın vilayətlərinə daşınır.

Orada bir qədər dayandıqdan sonra onlar Atəşgaha yola düşürlər. Balaxanı kəndindən Atəşgaha faytonla bir saatlıq yoldur. Bura bir başqa aləmdir. Burada zavodlarda ağ neft istehsal olunandan sonra torpağın təbii sərvəti ilə çoxlu gəlir əldə edilir. Zavodun sahibi Rusiyanın mötəbər tacirlərindən olan Mirzəyevdir. Mirzəyev çox mötəbər bir şəxsiyyətdir. Zavodlarından ayda 20 min manat fəhlələrin əmək haqqına xərcləyir, özü xoşsifət və qaraqaş, qaragöz cavandır. İran əhlinə çox oxşayır.

Şahzadə Atəşgaha gələrək, bir otaqda yaşayan Moltanı əhlindən olan hindlini görür. O, qalxıb atəşlə üzbəüz, ayaq üstə dayanaraq, hind dilində dua oxumağa başlayır və dua edərkən əlində tutduğu bir zəngi aramsız olaraq səsləndirir. Onun sağ və sol tərəfində yerdən qalxan iki alov şölələnirdi. Maraqlı fakt budur ki, şahzadə 7-8 ay sonra yenidən Bakıya qayıtdıqda Atəşgahda həmin moltanının eyni vəziyyətdə ibadət etdiyini heyrətlə yazıb. Fərhad Mirzə Atəşgahın divarlarından birində qədim mixi yazısı ilə nə isə yazıldığını və bu yazının heç kəsə məlum olmadığını qeyd edir.

"Xeyli tamaşa etdikdən sonra axşamdan üç saat on beş dəqiqə keçmiş oradan yola düşdük və faytonları sürətlə sürərək, axşamdan beş saat keçmiş Badkubəyə yetişdik. Cənab qubernator məni mənzilimə çatdırıb xudahafizləşdi və öz evinə getdi" [4, s.41].

Bakıdan sonra Fərhad Mirzə başqa Azərbaycan şəhərlərini də dolaşır. Şamaxı, Ağsu, Göyçayı görür. Şamaxıya çatarkən mütləq Xaqani Şirvanini xatırlayır, ona şeirlə üz tutur. Şeirdə qeyd edir ki, Şirvana Şərvan, yəni şər ocağı deyirlər. Amma bura xeyrəvandır. Şamaxıdan keçdikdən sonra Ağsuya gəlir. Burada şahzadə qədim Came məscidinə gedir. Məscidin hündür, daşdan tikilmiş günbəzi vardır. Sünni əhali orada cümə namazı qılır, zəlzələlər məscidə heç ziyan yetirməmişdir. Ağsu həm şiəməzhəb, həm də sünniməzhəb əhaliyə malikdir. Onun ağsaqqallarından biri Ağa bəydir. Ağa bəy mötəbər şəxs olub, Teymur bəy adlı yaxşı bir oğlu vardır. O, cavan oğlunu mərhum vəliəhdə (Abbas Mirzə Naibüssəltənə) ehtiram əlaməti olaraq bir neçə atlı ilə göndərdi ki, bizi Kəluliyə qədər müşayiət etsinlər. Atası mərhum vəliəhdin tüfəngdarı olmuşdur.

Daha sonra şahzadə Kəluli poçt məntəqəsindən Göyçaya, oradan da Bərgüşad ərazisinə daxil olur. Bərgüşad rayonlardan ən məhsuldar olanı, məşhur ərazidir. Bu ərazi Kür çayının kənarınadək uzanıb gedir. Kənddə yeddi yüz ailə yaşayır və bir hamamı yoxdur. Bütün Bərgüşad ərazisində bir hamam yoxdur.

Şahzadə Göyçaydan keçərək mənzilə yetişdi və burada əlahəzrət imperatorun Göyçay kəndini şəhər etmək fikrində olduğunu eşitdi. Artıq burada xeyli yaxşı evlər tikilmiş, bazar da mövcuddur.

Göyçaydan çıxarkən naçalnik şahzadəyə bildirir ki, o buradan keçən ilk şəxsiyyətdir və yeni abadlaşdırılmış küçəni şahzadənin şərəfinə "Prins Fərhad küçəsi" adlandırmaq niyyətindədir. Şahzadə məmnuniyyət hissi ilə buna razılıq verir [4, s.42-47].

Bir çox ərazilərdən keçdikdən sonra şahzadə Fərhad Mirzə Gəncəyə daxil olur. Gəncəni, oranın məscidlərini geniş təsvir edir. Amma şahzadə bura gəlib də böyük Nizaminin məqbərəsini görməyə bilməzdi. Amma görməyinə peşman olur. Yazır ki, Nizaminin qəbri Gəncə şəhərindən 7 verst aralıdır. Şahzadə yerə düşüb onun qəbrinin üstünə gedir. Yaxınlıqda gözətçi məntəqəsi yerləşir. Rus əsgərləri – keşikçilər öz atları üçün buraya o qədər saman, ot-ələf tökmüşdülər ki, günbəzin yanına getmək mümkün olmadı [4, s.52-56].

Gəncədən sonra şahzadə Ağstafa – Alget istiqamətində yolu davam etdirir. Buradan Şıxlı kəndini ziyarət edir və Sınıq körpüdən keçən Xram çayına çatır. Qeyd etdiyi məlumata əsasən, burada Xramçaydan böyük çay yoxdur. Ətrafı isə meşəlikdir. Sınıq körpüdən keçdikdən sonra şahzadə Qazax qəzasının rəisi ilə xudahafizləşir və şimal istiqamətində hərəkəti davam etdirir. Buradan Tiflisə gəlir, rəsmi dairələrlə, eyni zamanda, Mirzə Fətəli Axundovla da görüşür, onun yeni əlifbası ilə tanış olur [4, s.6,63].

"Səfərnamə" də şahzadə Mirzə Fətəli Axundzadə ilə görüşündən daha çox bəhs edir. Gedərkən də, qayıdarkən də onunla ünsiyyətdə olur. Axundov onun bütün görüşlərində tərcüməçilik edir. O vaxt Mirzə Fətəli Axundzadə Qafqaz canişininin tərcüməçisi idi.Fərhad Mirzə yazır ki, "rusların Axundov deyə müraciət etdikləri polkovnik – bütün Qafqazın canişininin mütərcimi Mirzə Fətəli Axundzadə özünün ixtira etdiyi əlifbanı gətirmişdi".

Şahzadə bu 3 qisim layihədən ikisini bəyənir. Bildirir ki, layihənin birində hərflər ayrı-ayrı, həm də soldan-sağa yazılır. Şəkillərinə görə latın əlifbasının hərfləridir. Avropa yazısına oxşadığı üçün islam dini bunu qəbul etməyəcək. Fərhad Mirzə o biri 2 növ əlifbaya da nəzər salır və qeyd edir ki, bu əlifbalar mümkün olsa yaxşıdır. Şahzadə təəssüf edir ki, Mirzə Fətəli bu yolda çox əziyyət çəkib, amma buna nail olmayacaq və bu, elə belə də olur. Axundov həm Osmanlıda, həm İranda olan nüfuzlu şəxsiyyətlərə çox müraciətlər edir, amma yeni əlifba layihəsinə dəstək verən olmur. Amma şahzadə bu əlifbaya çox ciddi yanaşmış və əsərdə bu əlifbadan bir nümunə də vermişdir. [4, s.75].

"Səfərnamə"də əksini tapan maraqlı faktlardan biri də budur ki, şahzadə Tiflisdə olarkən Qafqaz canişini Mixaylovun otağında bir xəritə görür. Ona izah edirlər ki, xəritədə göstərilən dağın arxası Çeçen vilayətidir. Onlar bizimlə xeyli vuruşmuşlar. Fərhad Mirzə çəkinmədən əlavə edir ki, Şeyx Şamil Dağıstanın sünniməzhəb, görkəmli şəxsiyyətlərindən idi. Dağıstanın istiqlalı uğrunda terrora qarşı mübarizə aparmış, Rusiyaya böyük təzyiqlər göstərmişdir. Şamil illərlə mübarizə apardı, lakin İran və Türkiyə ona yardım etmədi [4, s.360].

Noyabrın 6-da Tiflisdən Poti limanına yola düşən şahzadə Batum, Trabzon və s. limanlardan keçərək, ayın 12-də İstanbula daxil olur. Fərhad Mirzə İstanbulun etimologiyasına da toxunur və onu İslambul, yəni İslamın bol olduğu yer kimi təqdim edir, İstanbul haqqında maraqlı sosial-coğrafi məlumatlar verir [4, s.6]. İstanbulda olarkən ən mühüm hadisə həmin dövrdə Osmanlı sultanı olan Əbdüləzizlə (1861,15 iyun-1876,4 iyun) görüş olur. Sultan iki dəfə - Məkkəyə gedəndə və qayıdanda onu qəbul edib. Özü də yazır ki, Sultan heç bir qonağa bu qədər çox diqqət göstərməyib. Lakin ona çox vaxt ayırdı. Onların maraqlı söhbətləri olub. Görüş haqqında məlumat verən Fərhad Mirzə bir xüsusa diqqət çəkir: "Ərz elədim ki, indi yer üzündə iki islam dövləti vardır: Türkiyə və Qacarlar; Onlar mənəvi cəhətdən bir olsalar, əlbəttə ki, islam dininin daha da qüvvətlənməsinə səbəb olar və xaricilərin nəzərində böyük şərəfə və ehtirama layiq olarlar. O, bu sözlərdən sonra gülümsədi və dedi: "Bəyan etdiyiniz kimidir" [4, s.107, 325-338].

Şahzadə İstanbulda mövcud olan abidələr, məscidlər, Ayasofya, Sultan Əhməd camesi haqqında məlumat verir. Ayasofya məbədinə tamaşa etdikdə bildirir ki, bu məbəd həqiqətən möhkəm və qalın divarları olan binadır. Əvvəllər kilsə olmuş abidədə məscidə çevrildiyi vaxtdan namaz qılmaq üçün mehrab sonra tikilmişdir. Qiblə mehrabının yana əyilməsi ona görədir ki, əvvəl kilsə olmuşdur, II mehrabı sonra namaz qılmaq üçün düzəltmişlər.

Oradan I Sultan Süleyman camesinə gəlir. Həqiqətən bu came Ayasofyadan sonra ali binadır və dünyanın ən yaxşı məscidlərindən biridir. Ola bilər ki, oxşarı yoxdur.

Daha sonra İşkal (həndəsi fiqurlar) Nikiçəri muzeyinə daxil olaraq maraqlı faktları qeyd edir. Bildirir ki, burada qəribə libaslar və mumdan qorxunc sifətlər düzəldilmişdi və nümayiş etdirilirdi. Şahzadə buna istinadən yazır ki, əksər belə qorxunc fiqurların çoxunu düşünərək, bilə-bilə və qəsdən düzəltmişlər ki, insanlar onlara istehza ilə baxsınlar, baxıb hündürlüyü Ararata çatan sədr əzəmin ağ əmmaməsinin, papağının lap bu yaxınlarda da, yaxın keçmişdə istifadə edildiyini görsünlər və yaxud şeyxül-islamın həmçinin, fərq onun əmmaməsinin dairəvi olmasıdır. Həmçinin, şahzadə qeyd edir ki, onun zamanında uzun papaqlar qoymaq adət idi. Indi isə papaq qısaldılmışdır. Ona görə də şahzadə şəkillərdə və rəsmlərdə o papaqları gördükdə təəccüb edir. O qəribə libaslar və bir adamın döyüşdə istifadə üçün aparması mümkün olmayan bir neçə cürə əcaib silahlar onun üçündür ki, insanlar bir daha o zamanın fikrinə düşməsinlər və o libas və silahlara nifrət etsinlər [4, s.107-111].Fərhad Mirzə İstanbuldan İzmirə, oradan İsgəndəriyyəyə və sonra Qahirəyə lir [4, s.112]. O, yazır ki, "indi Misir (Misir 1517-ci ildən 1805-ci ilədək bilavasitə osmanlılar

tərəfindən idarə olunmuşdu, Məhəmməd Əlinin dövründən (1805-1848) hakimiyyət nominal xarakter daşımış, 1914-cü ildən sonra isə burada osmanlıların nominal hakimiyyəti də başa çatmışdır) əhalisinin sayı yerli və xaricilərlə birlikdə, 500 min nəfər olar və Misirin qədim küçələri çox dar və çox hündürdür" [4, s.132].

Fərhad Mirzənin Misirdə olduğu dövrdə Misirin xədivi (hakimi) İsmayıl paşa (1863-1879) idi. İsmayıl paşa xəstəhal olmasına baxmayaraq, Fərhad Mirzəni qəbul edir və onun yazdığına görə söhbət zamanı Misirin abadlığı, yolları və dəniz problemləri müzakirə olundu [4, s.151].

Səyahət Süveyş kanalı vasitəsilə Qırmızı dənizdə davam etdirilir, əvvəlcə Yənbəə limanına, sonra isə Ciddəyə çatır. Hərəkət buradan quruda dəvələrlə davam etdirilir, Fərhad Mirzə dekabrın 16-da Mədinə şəhərinə çatır. Mədinə şəhəri və buradakı görüşlər haqqında da ətraflı məlumat verilir [4, s.168,190].

Şahzadə Mədinədə Hərəmi-Mübarəki (Kəbə) ziyarət edərkən burada Qum və Mazandaran zəvvarları İranın Şamdakı konsulu Abbasqulu xandan xeyli şikayət edirlər. Belə ki, konsul etdiyi tələblərin müqabilində onlara heç bir məvacib ödəmir, hətta ölən zəvvarların da əmlakını mənimsəyir. Zəvvarlar şahzadəyə and verdilər ki, o, bu barədə təcili olaraq xarici işlər vəzirinə yazacaq və bu ərzi Əlahəzrətə çatdıracaq.

Şahzadə oradan ayrılaraq Həzrəti-Həmzə (ə) məzarlarını ziyarət edir. Daha sonra Məhəmməd bin Abdulla əl-Həsən bin əl-Həsən Əleyhissəlamı ziyarət etməyə gedir. Orada Quranda verilən ayədə (Müzəmmil surəsi, 17-ci ayə) olan səhv barədə savadsız bir şeyxlə mübahisəsi olur. Mübahisə bitdikdən sonra şahzadə mübarək yeri öpərək oradan ayrılır [4, s.216].

Zilqədəülhəram ayının 27-si, Mədinədə olarkən Fərhad Mirzənin ayın görünməsi barədə Mədinə qazisi İsa Əfəndi ilə söhbəti də olur. Qazi ayın Qəmər olduğunu dedikdə şahzadə İstanbul təqvimindən xəbərdar olmadığı üçün təəccüblənir və ayın bir qədər zəif olduğunu bildirir. Mədinə qazisi izahat verərək bildirir ki, orada ay tutulması gecə baş verir və təzə ay gecə görünmürsə, deməli, həmin gün ayın iyirmi yeddisidir. Burada adətə uyğun olaraq iyirmi səkkizinci gecədə ay görünmür [4, s.223].

Günortadan bir saat keçmiş şahzadə oradan yola düşərək Abbas quyusuna tərəf yetişir. Lakin bura gələndə o, Sultani yolundan deyil, Boğazi-Cədidə yolundan hərəkət edir. Bunun səbəbi Sultani yolunda ərəblərin yolçulardan çox böyük yol haqqı tələb etməsi idi. Abbas quyusunu keçdikdən sonra onlar Məsturə quyusuna çatırlar. Axşam saat yeddi idi və doğurdan da göy üzündə ay görünmürdü. Buna diqqət yetirən şahzadə Mədinə qazisinə məktub yazır. Qazi burada da zəvvarların ayı görmədiyini təsdiq edir.

Nəhayət, 1876-cı il yanvarın əvvəllərində Fərhad Mirzə Məkkəyə gəlir. Burada şahzadə Məkkənin əmiri Şərif Abdulla tərəfindən qarşılanır. Burada şahzadə atlı və nizamla Kəbəyə yol alır və orada ayini yerinə yetirir. İbrahim məkanında namaz qıldıqdan sonra Səfa qapısından çıxır [4, s.232].

Daha sonra o, Məkkədə Zəmzəm quyusuna tamaşa edir. Quyunun suyu kirlənməsin deyə ətrafını mərmərlə hörərək qaldırmışlar. Orada şahzadə Xaqaninin bir şeirini xatırlayır. Bu şeirdə deyilir ki, şair Zəmzəm quyusunu görərkən mərmər yox idi.

Zəmzəm quyusundan geri qayıtdıqdan sonra şahzadə mənzilə qayıdır və bir neçə gündən sonra o, öz adamları ilə Ərəfat dağına tərəf yol alır. Orada ibadətlə məşğul olur.
Ayinlərin icrası daha sonra Məkkeyi-müəzzəmədə, Mina dağında baş tutur. Bu ərəfədə eyni zamanda Qurban bayramı da qeyd olunurdu. Şahzadə Hicaz valisi cənab Təqiəddin paşa ilə görüşür və ona bayram təbriki bildirir. Bundan sonra Mina dağında bayram münasibətilə atəşfəşanlıq baş verir. Burada Məkkə şərifinin qardaşı Ovn paşa rəsmi libasda şahzadə ilə bayram görüşünə gəlir [4, s.235].

Məkkədə bir çox müqəddəs yerləri ziyarət etdikdən sonra Fərhad Mirzə geri yola düşür. Geri qayıdarkən o, Ciddədə İran, İngiltərə və Fransa konsulları ilə görüşür. Görüşdən sonra onlar Oturay adlı paroxoda əyləşərək Ciddədən yola düşürlər. Buradan Vəch limanına çatdılar və karantin səbəbindən dayandılar. Bir müddətdən sonra oradan ayrılır və Süveyş istiqamətində hərəkət edilir. Şahzadə Misirə çatdıqda Misir xədivi İsmayıl paşa ilə Süveyş kanalı və onun inşası barədə söhbəti olur. Bundan sonra Fərhad Mirzə Port-Səid istiqamətində yola düşür. Nəhayət, o, Rodos limanına daxil olur. Rodos yunan dilindən tərcümədə behişt mənasını verir. Bu ad adanın çox təmiz suyu və havası olduğu üçün ona verilmişdir.

Rodos adasından hərəkəti davam etdirən heyət gəmi vasitəsilə İzmir körfəzinə daxil olur. Şahzadə İzmirdə olarkən Misirin xədivi İsmayıl paşanın qardaşı Mustafa paşanın vəfatı xəbərini eşidir. Bundan başqa gəmi İzmir körfəzində dayanarkən burada çox təhlükəli bir hadisə baş verir. Belə ki, qazanxanadan çıxan buxar küləyin gücündən ətrafa yayılaraq gəminin alt hissəsində yanğına səbəb olmuşdur. Bu hadisədən sonra insanları xilas etmək məqsədilə başqa paroxodlar köməyə çatdılar [4, s.295].

İzmirdən Piladi paroxoduyla çıxdıqdan sonra gəmi Meytilin limanından keçərək Baxçaadasına, oradan da Çanaqqalaya daxil olur. Burada şahzadə cənab Vəziri-Muxtara teleqrafla bildirir ki, salamat qalsalar, sabah İstanbula çatacaqlar.

Gəmi 1876-cı il, fevralın on altısında Mərmərə dənizi ilə hərəkət edərək İstanbula çatır. Burada sədr-əzəm və hərbi nazirlə görüşlər keçirilir. Bundan sonra şahzadə ikinci dəfə Sultan Əbdüləzizlə görüşür. Görüş zamanı Fərhad Mirzə sultana Mədinə və Məkkədə gördükləri nöqsanlardan bəhs edir və bu barədə sultana yazılı məlumat verəcəyini bildirir və yazır: "Sultan məni əmin etdi ki, yazdığıma baxacaq və əlbəttə, yazılanların hamısı səhihdir" [4, s.336].

İstanbulda görüşlər başa çatdırıldıqdan sonra, Fərhad Mirzə 1876-cı il mart ayının əvvəllərində Qara dəniz vasitəsilə Potiyə yola düşür.

Potidən Tiflisədək dəmir yolu ilə hərəkət edən Fərhad Mirzə mart ayının 5-də yenidən Tiflisə dönür. Tiflisdə olarkən şahzadə Mirzə Fətəli Axundovla yenidən görüşür və ondan Bakı qubernatorunun halını xəbər alır. Həmçinin öyrənir ki, qubernatorun vəzifəsi yüksəlmiş və o, artıq parlament direktoru təyin edilmişdir.

Martın yeddisində nahardan əvvəl Bakı qubernatoru Starolselski rəsmi libasda şahzadə ilə görüşür və üzrhaxlıq edir. Fərhad Mirzə qubernatordan Badkubəyə yola düşən paroxodun vaxtını öyrənməsini xahiş edir. Bakı qubernatoru getdikdən sonra cənab Meriyski gəlir və şahzadə onunla Məkkə, Mədinə, Misir və İstanbul haqqında xeyli söhbət edir. Onların söhbətini Mirzə Fətəli Axundzadə tərcümə edirdi.

Fərhad Mirzənin knyaz Meriyski ilə görüşündən sonra Fərhad Mirzəninqardaşı, Bəhmən Mirzənin oğlu Xanbaba xan gəldi. Mirzə Fətəlinin qızı Bəhmən Mirzənin oğlunun, Xanbaba xanın həyat yoldaşı idi. O, oğlu Mənsur Mirzəni də gətirmişdi. Mənsur Mirzə Fətəli Axundovun qız nəvəsidir. Yeddi yaşı vardır. Yaxşı, diribaş oğlandır. Onda Axundovun zəkasının təsiri görünür [4, s.357].

Gürcüstan ərazisində bəzi yaşayış məskənlərindən keçən Fərhad Mirzə Azərbaycana dönərkən yeni marşrutla hərəkət edir, martın 16-da Zaqatalaya gəlir və səhərisi günü Şəkiyə yola düşür.Şəkidə Xan sarayı ilə tanışlıq əsnasında Rusiya hakimiyyət nümayəndəsindən eşitdiyi maraqlı bir fikir diqqətini cəlb edir. Binanı seyr edən vaxt naçalnik və başqa sahibmənsəb bizimlə idilər. Naçalnik bu şəhərdə olan bütün binaların tarixi, qədim abidələr olduğunu və orda soba olmadığına görə şahzadəyə yer ayıra bilmədiyini təəssüflə bildirir. Fərhad Mirzə Şəkidən sonra Göyçay-Ağdaş-Şamaxı yolu ilə (19-25 mart) Bakıya qayıdır. Şahzadənin nəzərindən heç nə yayınmırdı. Şamaxıda olarkən malakanlar haqqında da

məlumat toplayır və onların məzhəbindən bəhs edir. Fərhad Mirzə qeyd edir ki, Mərəzə əhalisinin məzhəbi malakandır. Bu tayfa rus keşişi tərəfindən rədd edilmişdir və onlar məzhəbdən xaric hesab olunurlar. Rus camaatı adətə görə cümə və şənbə günləri süd içmirlər. "Maluke" rusca süd deməkdir. Bu tayfa isə rusun qadağan hesab etdiyi bu adəti pozaraq süd içir. Ona görə də onları malağan adlandırırlar. Bu tayfada keşiş yoxdur. Malakanlar on iki peyğəmbərə etiqad bəsləyirlər [4, s.379].

Fərhad Mirzə səfərdən qayıdanda yenidən Bakı ilə tanışlığını (25-28 mart) davam etdirir. Bakıda olarkən Fərhad Mirzə "Əkinçi" qəzetinin naşiri və yazarı Zərdabi ilə görüşür və Həsən bəyə qəzetin sadə xalq təbəqəsi üçün nəzərdə tutulduğunu söyləyir, bunu təqdirə layiq bilir. Bildirir ki, onun bir tərəfi fars dilində olsaydı, İranda da xeyli oxucusu tapılardı. Həsən bəy də burada farsdilli əhalinin az olduğunu söyləyir. Həmçinin, şahzadə deyir ki, Zərdabi ifadəsi və Zərdabın harada yerləşdiyi heç məlum deyil. Deyir ki, "Şirvani təxəllüsü ilə yazsaydın, bu məlum, məşhur şəhərdir. Şah da bilir ki, Şirvanda sünni əhali yaşayır". Həsən bəy bildirir ki, "bu vaxtadək belə tanınmışam və Şirvani olmaq xanzadələrin haqqıdır. Əgər dəyişdirməli olsaq, gərək dövlətdən izin alaq və çətin ki, izin verələr". Bu söhbətdən sonra Fərhad Mirzə əlavə edir ki, Zərdab Şamaxıda bir kənddir və Həsən bəyin əsli ordandır [4, s.384].

Martın 28-də şahzadə Bakıdan yola düşür Gəmi əvvəlcə Salyan, sonra Lənkəran limanından keçir. Nəhayət, gəmi Ənzəliyə doğru yola düşür. Beləliklə, Fərhad Mirzə İrana daxil olur [4, s.388-390].

**Nəticə.** Fərhad Mirzənin "Səfərnamə"sinin təhlili göstərir ki, o, həm səyahət ədəbiyyatı olmaqla, həm də dövrə dair əhəmiyyətli sosial-coğrafi və siyasi məlumatları ilə mühüm əhəmiyyətə malikdir. Fərhad Mirzənin səfəri zamanı keçdiyi dövlətlərdə yüksək səviyyədə qarşılanması, müəyyən danışıqlar aparılması "Səfərnamə"nin informasiya bazasının genişləndirilməsinə imkan vermişdir ki, bu da onun əhəmiyyətini xeyli dərəcədə artırmışdır. Əsər göstərilən bir sıra ictimai-siyasi əhəmiyyəti ilə bərabər, cəmiyyətşünaslıq, irqşünaslıq məsələlərində, habelə botanika, geologiya, ədəb, rüsum, heyət və nücum, dilşünaslıq elmlərinin, xarici dövlətlərin ərazilərinin, onların pul vahidlərinin öyrənilməsində və s. mühüm rol oynamışdır. Bununla yanaşı, "Səfərnamə" Rusiya, Osmanlı, Misir ölkələrində baş verən inqilabi-demokratik dəyişikliklərin dəyərləndirilməsi nöqteyi-nəzərindən qiymətli mənbədir.

**Ədəbiyyat:**

1. Əminə Pakrəvan. Abbas Mirzə və Azərbaycan. Bakı: Qanun, 2007, 204 s.
2. Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı – Azərbaycan münasibətləri. Bakı, 2002, 370 s.
3. Tahirə Həsənzadə. XVIII – XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri. Bakı: "Elm və Təhsil", 2013, 282 s.
4. Fərhad Mirzə Qacar. Səfərnamə. II nəşr. Fars dilindən tərcümə edəni T.Həsənzadə. Bakı: "Elm və Təhsil", 2017. 418 s.

***Сабина Кулиева***

## ИССЛЕДОВАНИЕ ПРОИЗВЕДЕНИЯ ФАРХАДА МИРЗЫ КАДЖАРА «САФАРНАМЕ»

**Резюме**

В статье рассказывается о путешествии интеллектуального принца из династии Каджаров Фархада Мирзы Каджара в Мекку в 1875-1876 гг. Проезжая по многим территориям Азербайджана Фархад Мирза Каджар писал о событиях, которые он видел и слышал. Путешествие в Мекку, начавшееся из России и проходившее через Османскую империю и Египет, не было путешествием обычного путешественника, это была церемония встречи привилегированного человека. В статье мы знакомимся с политическими встречами Фархада Мирзы Каджара с видными представителями. Анализируя эту информацию, мы определяем, что он везде был очень уважаемой личностью.

**Ключевые слова:** *Династия Каджаров, Фархад Мирза Каджар, Сафарнаме, путешествие в Мекку*

***Sabina Kuliyeva***

## RESEARCH OF FARHAD MİRZA QAJAR'S "SAFARNAME" WORK

**Summary**

The article talks about an intelligent prince of the Qajar dynasty Farhad Mirza Qajar's journey to Mecca in 1875-1876 years. Farhad Mirza Qajar wrote about the events that he saw and heard, while passing through many Azerbaijani territories. The journey to Mecca, which started from Russia and passed through the Ottoman Empire and Egypt, was not the journey of an ordinary traveler, it was a ceremony of welcoming a privileged person. In the article we get acquainted with the political meetings of Farhad Mirza Qajar with distinguished representatives. Analysing this information we determine that he is a very respectable personality everywhere.

**Key words:** *Qajars dynasty, Farhad Mirza Qajar, Mecca journey, Safarname*

*Redaksiyaya daxil olma tarixi: 04.10.2022*
*Çapa qəbul olunma tarixi: 10.11.2022*

*Tarix elmləri doktoru Tahirə Həsənzadə .tərəfindən*
*çapa tövsiyə olunmuşdur*